# "Nizami Gəncəvi ili"nə həsr olunmuş tədbir



**AMEA-nın N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran Regional filialının təşkilatçılığı ilə Nizami Gəncəviyə həsr olunmuş tədbirlərin yekunu olaraq ədəbi-bədii yubiley mərasimi keçirildi.**

Kürdəmir şəhər Tofiq İsmayılov adına 1 saylı tam orta məktəbdə təşkil olunmuş tədbiri giriş sözü ilə Ədəbiyyat Muzeyinin Aran Regional filialının müdiri, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı açdı. O, Yaxın Şərq xalqlarının bədii idrakının zirvəsi olan, yeni intibah ədəbiyyatının möhtəşəm abidələrini yaradaraq dünya ədəbiyyatı tarixində yeni bir tarixi dövr açan Nizami Gəncəvi poeziyasının müxtəlif aspektlərdən öyrənilməsi və təbliğinin vacibliyindən danışdı.

Sonra M.Füzuli adına Əlyazmalar İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Əzizağa Nəcəfov "Nizami Gəncəvinin milli və ədəbi kimliyi" mövzusunda məruzə ilə çıxış etdi. Alim dahi şairin milli kimliyimizi özündə əks etdirən dastan, əfsanə, rəvayət və nağıllarımızdan səmərəli bəhrələndiyini diqqətə çatdırdı.

Mərasimdə Kürdəmir Rayon İcra Hakimiyyəti başçısının müavini Vəsilə Əsgərli, Mollakənd tam orta məktəbinin direktoru Akif İbrahimov, Karrar qəsəbə tam orta məktəbinin dil-ədəbiyyat müəllimi Şəfəq Ağayeva, Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlı, Kürdəmir Rayon Təhsil Şöbəsinin müdiri Rəfail Məmmədov çıxış edərək "Nizami Gəncəvi ili" çərçivəsində keçirilən silsilə tədbirlərin əhəmiyyətindən danışdılar.

Sonda "Nizami Gəncəvi ili"ndə muzeyin təşkilatçılığı ilə keçirilən tədbirlərdə fərqlənənlərə Milli Azərbaycan Ədəbiyyatı Muzeyi tərəfindən Fəxri Fərmanlar təqdim edildi.

Tofiq HÜSEYN,
"Respublika".

Respublika.- 19 dekabr.- 2021- ci il.- S. 10.